Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
Layihənin istiqaməti:
“ İctimai və dövlət maraqlarının müdafiəsi”

# Bəxtiyar Vahabzadə və mərasim folkloru

**Azərbaycan poeziyası bəşər tarixində fikir zənginliyi, müdriklliyi, coşqunluq və lirik axıcılığı ilə məşhurdur. Belə bir poeziyanın şairi olmaq böyük şərəf, qürur, həm də məsuliyyətdir. Xalq şairi Bəxtiyar Vəhabzadə də belə sənətkarlardandır. O, hələ rəsmən xalq şairi olmamışdan əvvəl də xalqımızın sevilən şairlərindən biri olmuşdur. Bəxtiyar Vəhabzadə Azərbaycan fəlsəfi şeirini daha uca zirvələrə yüksəldən şairlərimizdəndir.**

Poeziyamızın tarixində nəinki Azərbaycan, eləcə də müasir türk poeziyasının sevilən, seçilən simalarındandır. Parlaq yaradıcılığı ilə xalqımızın məhəbbətini, qazanmış el şairi öz yaradıcılığını Azərbaycanın şifahi xalq ədəbiyyatından, ətirli vətən torpağından, ruhunu isə xalqın ürəyindən gələn doğma dilimizdən almış, həyatın bütün sahələrinə aid gözəl əsərlər yaratmışdır. Əsərlərinin çoxunda keçmişimiz, çağdaş günümüz, həmçinin gələcəyimiz öz əksini tapmışdır.

Müasir Azərbaycan poeziyasının təkrarsız simalarından olan Bəxtiyar Vahabzadə bədii fikrimizin zənginləşərək inkişaf etməsində böyük rol oynamışdır. Dahi söz ustadımız xalqımızın əsrlər boyu təşəkkül tapmış yüksək milli-mənəvi dəyərlərinin qorunması, adət-ənənələrimizin, folklorumuzun yaşayaraq gələcək nəsillərə çatdırılması istiqamətində yorulmadan yazıb yaratmışdır.

Professor Kamran Əliyev yazır: ”Şübhə yoxdur ki, hər bir folklor nümunəsinin yaşamasının və yaddaşlarda təzə-tər qalmasının başlıca sirri məhz onların həyatı gücündən, gerçəkliyə nə dərəcədə bağlılığından asılıdır. Folklorun həyatdan, insanların gün-güzəranından, nəsillərin tarixə münasibətindən nəşət etməsi adi bir həqiqətdir, lakın yaranan folklor nümunəsinin yenidən insanlara qayıtmaq, yenidən insanlara öz sehri ilə ovsunlamaq isə daha böyük həqiqətdir. Bu baxımdan Novruz bayramının və Novruz mərasimlərinin yenidən, eyni zamanda hər il insanlarа qayıtması onun bütün el üçün, xalq üçün-hamıya, bütün insanlara gərəkliyi faktını da təsdiqləmiş olur. Novruz bayramı bütün elliklə təbiətə, insanlara bağlılıq deməkdir .

Bəxtiyar Vahabzadənin Novruz bayram kompleksi ilə bağlı şeirləri bir çox nəticələrə gəlməyə imkan verir. Bəxtiyar Vahabzadənin yaradıcı şəxsiyyətinin ölçü və hüdudlarını tam əhatələmək olmur. Ona görə belə hesab edirik ki, müəllifin Novruzla bağlı istənilən yazısına ilk növbədə Bəxtiyar Vahabzadənin milli-mənəvi dünyası kontekstində yanaşmaq lazımdır. Bu halda onun bu şeirləri ayrı bir məna kəsb edir. Problemə bu yöndən baxdıqda aydın olur ki, bunlar müəllifin daha çox milli vicdanının səsi, milli qəlb yanğısının ifadəsidir.

*Novruz gəlir əllərimdə səməni,*
*Otağıma gətirmişəm çəməni.*
*Zaman, sənin axarına üzmədim,*
*Nə mən səni anladım, nə sən məni.*

Bəxtiyar Vahabzadə sözün həqiqi mənasında şair və vətəndaş idi. O, bir şair kimi xalqın yaratdığı Novruz nəğmələrinin, ümumən mərasim folklorunun nə qədər böyük milli-bədii dəyərlərə malik olduğunu bilirdi. Şair üçün bu mərasim folkloru sadəcə əsrlərlə xalq təfəkküründə cilalanmış yüksək söz inciləri deyildi. Bəxtiyar Vahabzadə mərasim folkloruna və ümumiyyətlə şifahi yaradıcılığa milli varlığın özü, milli mövcudluğun şərti kimi baxırdı. Belə hesab edirdi ki, Azərbaycan xalqının milli simasının, milli özünəməxsusluğunun qorunması onun folklorunun qorunması və yaşadılmasından asılıdır.

O, ömrünün əsas hissəsini sovet dönəmində yaşadı və əsas əsərlərini bu dövrdə yazıb-yaratdı. Sovet mədəniyyəti ”məzmunca - sosialist, formaca - milli” olsa da, bu, sözdə belə idi. Əslində, sovet ideologiyası müsəlman-türk milliliyini qəbul etmir, onu məhv etməyə, saxtalaşdırmağa, unutdurmağa və s. çalışırdı. Öz dövrünün ayıq-sayıq ziyalısı olan Bəxtiyar Vahabzadə 1937-ci ilin faciələrindən xəbərdar olan şəxs kimi sovet ideologiyasının hiyləgər milli siyasətini incəliklərinə qədər bilirdi. Ona görə də öz yaradıcılığında sovet ideologiyasının ”məzmunca - sosialist, formaca - milli” siyasətinin verdiyi minimum imkanlardan maksimum şəkildə istifadə etməyə çalışır və bunu başqalarına da təbliğ edirdi. Belə hesab edirik ki, Bəxtiyar Vahabzadənin mərasim mədəniyyətimizin ən nəhəng hadisəsi olan Novruz bayramına bu cür vətəndaş yanğısı ilə yanaşması məhz bununla bağlıdır.



**Bəxtiyar Vahabzadənin Novruz bayram kompleksi ilə bağlı şeirləri bir çox nəticələrə gəlməyə imkan verir. Bəxtiyar Vahabzadənin yaradıcı şəxsiyyətinin ölçü və hüdudlarını tam əhatələmək olmur. Ona görə belə hesab edirik ki, müəllifin Novruzla bağlı istənilən yazısına ilk növbədə Bəxtiyar Vahabzadənin milli-mənəvi dünyası kontekstində yanaşmaq lazımdır. Bu halda onun bu şeirləri ayrı bir məna kəsb edir. Problemə bu yöndən baxdıqda aydın olur ki, bunlar müəllifin daha çox milli vicdanının səsi, milli qəlb yanğısının ifadəsidir.**

*Novruz ötüb, yazbaşıdır,*
*Bu nə səsdir,*
*Göydə topa buludların*
*Bir-biriylə güləşməsi,*
*Dağlardakı qar üstünə*
*Xal düşməsi,*
*Dərələrdə suya dönüb*
*Gülüşməsi,*
*Marxallarda qar uçqunu.*

Bəxtiyar Vahabzadənin şeirlərində zahiri planda görünməsə də, yazıların alt planını, müəllif ideyasının bütün mahiyyətini təşkil edən bir qızıl xətt var: bu, Novruz bayramının milli mahiyyəti, milliliklə bağlılığıdır. O, dərindən dərk edirdi ki, sovet ideologiyası tərəfindən Novruzun unutdurulması, aradan aparılması Azərbaycan milli mənəviyyatı üçün ağır nəticələr verəcəkdir.

Bəxtiyar Vahabzadəyə görə, hər il azərbaycanlı mənəviyyatından boy verərək cücərən Novruz, əslində, unudulmayan, yaşayan, ölməyən milliliyimizdir.

*Yazla qışın savaşıdır,*
*Novruz ötüb... Yazbaşıdır....*
*Sellər, sular aşıb-daşır,*
*Bir-birilə qucaqlaşır.*
*Qayaların qabağında*
*O əyilir, o burulur.*

Qeyd edək ki, Bəxtiyar Vahabzadənin Novruza bu yanaşması onun təkcə sovet dövrü milli siyasətinin eybəcərliklərinə dərindən bələd olması ilə bağlı deyildi. Bu həm də şair tarixi biliklərindən doğurdu. Bəxtiyar Vahabzadə bilirdi ki, tarix boyunca hakim ideologiyalar Novruzu məhdudlaşdırmağa, onun milli mənəviyyatdakı yerini kiçiltməyə, yaxud yox etməyə çalışıblar. Hələ İslam dinin ilk gəlişi dövründə bu bayrama təzyiqlər olmuşdur: ”Xurafat bu bayramı uzun müddət unutdurmağa çalışmış, hətta onu dördüncü xəlifənin hakimiyyətə gəlməsi ilə bağlamağa cəhd etmişdir. Lakin bunun sonradan qondarıldığı şübhəsizdir. Əvvəla, müsəlman bayramları qəməri təqvimə əsaslandıqları üçün ilbəil öz yerlərini dəyişdikləri, yəni başqa-başqa vaxtlarda, başqa-başqa fəsillərdə icra edildikləri halda, Novruz sabit bir şəkildə ancaq və ancaq yazın birinci günü qarşılanır. Elə buna görə də ruhanilər güzəştə getməyə məcbur olduqdan sonra belə, bu bayramı əsil dini bayramlardan fərqləndirməyə çalışmışlar. Hətta Novruzu məsxərəyə qoymaq, hörmətdən salmaq, təhqir etmək məqsədi ilə onu ”topal bayram”, ”şikəst bayram”, yəni hərəkət edə bilməyən bayram adlandıranlar da olmuşdur.

Təbii ki, xalqın içindən çıxmış, bütün mənəviyyatı və şəxsiyyəti xəlqi ənənələrlə yoğrulmuş Bəxtiyar Vahabzadə Novruzun tarixən və sovet dövründə yaşadığı keşməkeşli taleyin onun milli tərəfləri ilə bağlı olduğunu, daha doğrusu, bu bayramın millilik qaynağı olmasından doğduğunu çox gözəl bildiyi üçün onun qorunması, ənənələrinin öyrənilməsini çox vacib hesab edirdi. Səciyyəvidir ki, şairin sovet çağı əsərlərinin əqidə əsasını təşkil edən bu ideya xətti sonrakı əsərləri ilə öz təsdiqini taparaq şairin nə qədər uzaqgörən ziyalı və iti zəkalı olduğunu təsdiqlədi.

Xalq şairi Bəxtiyar Vahabzadənin öz yaradıcılığında Novruzu zahirən ifadə etmədiyi, pərdəli şəkildə gerçəkləşdirdiyi fəaliyyətin də əsaslarını açıb göstərmişdir. Bəxtiyar Vahabzadənin əsərləri göstərir ki, o, Novruz bayramına Azərbaycan xalqının milli simasını qoruyan, onu bir xalq, milli varlıq kimi yaşadan yaddaş hadisəsi kimi baxmışdır. Mərasim yaddaşının milli yaddaşdakı yerini çox gözəl bilən Bəxtiyar Vahabzadə anlayırdı ki, hər il gələn Novruz özü ilə milli dəyərləri gətirir. Novruz hər il milli yaddaşı oyadır, insanlara milli kimliklərini xatırladır. Sovet ideoloqları ona görə də milli yaddaşı oyadan, ayıq saxlayan, itməyə, ölməyə qoymayan bu mərasim maşınını yox etməyə çalışırdılar. Onlar bir həqiqəti bilirdilər ki, Novruz yaşadıqca Azərbaycan xalqı öz milli kimliyini daim dərk edəcək. Bəxtiyar Vahabzadə də bu böyük həqiqəti bilir və öz yazılarında Novruzu milli yaddaş və milli dirçəliş qaynağı kimi təbliğ edirdi.

Dərin məlumata malik olan xalq şairi Bəxtiyar Vahabzadə yaradıcılığı ilə hər zaman diqqət mərkəzində olmuş, onun əsərləri isə həmişəyaşar əsərlər olaraq qalacaqdır.

**Gülsümxanım Hasilova**
**AMEA Folklor İnstitutu**
**“Folklor və yazılı ədəbiyyat” şöbəsinin böyük elmi işçisi**

***Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında hazırlanıb.***